# (HƏDIS (33 10

<"xml encoding="UTF-8?>

HƏDIS (33) 10

Hədis 320: Həzrət Əli (ə) buyurur: “Əsla, Qur`andan başqa yerdə şəfa axtarmayasınız, çünki Qur`an bütün dərdlərin şəfasıdır.”

* * *

Hədis 321: Həzrət Əli (ə) buyurur: “Düşünmək kimi ibadət yoxdur.”

* * *

Hədis 322: Həzrət Məhəmməd (s) buyurur: “Hər eşitdiyini danışmağın sənin yalançılığının sübutu üçün bəsdir.”

* * *

Hədis 323: Həzrət Məhəmməd (s) buyurur: “Gizli sədəqə Pərvərdigarın qəzəbini söndürər.”

* * *

Hədis 324: Həzrət Məhəmməd (s) buyurur: “Dilini saxlayan kəsin eyblərini Allah örtər.”

* * *

Hədis 325: Həzrət Məhəmməd (s) buyurur: “Xalqın haqqını itirməyənlər Allaha ən çox şükür edənlərdir.”

* * *

Hədis 326: Həzrət Məhəmməd (s) buyurur: “Harada olursansa ol, Allahdan qorx.”

* * *

Hədis 327: Həzrət Məhəmməd (s) buyurur: “Mö`min az xərcli və qanedir.”

* * *

Hədis 328: Həzrət Məhəmməd (s) buyurur: “Mö`minin şərəfi gecə oyaq qalmaq, izzəti isə xalqdan ehtiyacsızlıqdır.”

* * *

Hədis 329: Həzrət Məhəmməd (s) buyurur: “Mö`min bir dəlikdən iki dəfə sancılmaz (səhvini ”.(təkrar etməz